# Könüllü Elcanın savaş hekayəsi

**Vətən müharibəsindəki qələbədən 5 il ötməsinə baxmayaraq, hələ də şəhid adı gələndə ürəyi sızlayan, gözləri dolan analar, bacılar, gəlinlər var. Onların yalnız bir təsəllisi var: dövlətimiz Vətənin azadlığı, bütövlüyü uğrunda qurban gedənləri unutmur, onların ailələrini diqqətdə saxlayır. Bizim də borcumuz şəhidlik məqamına ucalan igidlərimizin həyatını, döyüş bacarığını işıqlandırmaqla belə ailələrə təskinlik verməkdir.**

Bu gün tovuzlu şəhid Elcan Cəlilovdan söz açacağıq. O Elcan ki, 1996-cı il aprel ayının 27-də Tovuz rayonunda anadan olub. 2003–2014-cü illərdə A.Puşkin adına Tovuz şəhər tam orta məktəbində təhsil alıb. Orta məktəbi bitirəndən sonra arzuladığı ali məktəbə daxil ola bilmədiyindən həqiqi hərbi xidmətə yollanıb. Elcan Cəlilov 2014–2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

Tovuzluların qonşu Ermənistan dövləti tərəfindən dəfələrlə müxtəlif iriçaplı silahlardan atəşə tutulması digər həmyaşıdları kimi, Elcanda da erməniyə nifrət hissini alovlandırıb. Gənclər günün birində Qarabağın azadlığı uğrunda mübarizəyə başlayacaqları günü həsrətlə gözləyirlər. Nəhayət, o gün yetişir.

Elcan Cəlilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində könüllülərin sırasında savaşa yollanır. Hər azad edilən kənd, şəhər onun ürəyində qələbə inamını möhkəmləndirir. İmkan tapdıqca valideynləri ilə telefon əlaqəsi yaradıb onlara tezliklə qələbə xəbəri verəcəyini deyirmiş. Atası Famil Cəlilovun bildirdiyinə görə, Elcan hər zəng vuranda azad etdikləri ərazilərin adını böyük sevinclə söyləyirmiş. Müharibənin ilk günündən döyüşdə olan Elcan Xocavəndin azadlığı uğrunda gedən şiddətli döyüşlərdə könüllü olaraq savaşıb. O, noyabrın 7-də Xocavəndin azadlığı uğrunda gedən şiddətli döyüşlər zamanı şəhid olub.

Öncə Familgilin qapısını Elcanın şəhid olduğu xəbəri döyür. Bir gün sonra isə Azərbaycan bayrağına bükülmüş tabutu hərbçilərin və döyüş yoldaşlarının əhatəsində doğulduğu evə gətirilir. Anası Güllü, qardaşı Amin və bacıları Nabatla Xanım tabutdakının Elcan olduğuna inanmaq istəmirlər. Ananın ağı dolu fəryadı ətrafa yayılır...



Torpağın üzü soyuq olur. Elcan Tovuz rayonunda Şəhidlər xiyabanında dəfn olunur. Elcan subay idi. Bəlkə də gəncin nakam qoyduğu gözaltısı vardı, kim bilir? Amma bildiyimiz o ki, Elcanın anası Güllü 5 ildir ki, hər cümə axşamı oğlu ilə görüşə gəlir. Ürəyindəkiləri onunla bölüşür, verdiyi suallara cavab ala bilmir, göz yaşları içində məzarı tərk edir. Hər gün otağın birində Elcana aid fotoların, əşyaların saxlandığı guşədə saatlarla oturur, sonra özünün dediyi kimi, təskinlik tapır...

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Elcan Cəlilov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Xalq qəzeti.- 2025.- 25 noyabr (№ 249).- S.13.